Aynur Nurlu

# İblislə söhbət

qanun nəşriyyatı

**Aynur Nurlu. İBLİSLƏ SÖHBƏT**

Bakı, Qanun Nəşriyyatı, 2023, 240 səh.

Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 20.05.2023

Korrektor: Aytən Şamil
Texniki redaktor: Aygül Yelmarlı
Mətn dizaynı: Sevil Rafail
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pros., 76
Tel.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-644-8

© Aynur Nurlu, 2023

© Qanun nəşriyyatı, 2023

Moskvada cərəyan edən hadisələrdə tələbə qızın satanistlə qarşılaşması – birincinin həyatının dəyişilməsinə səbəb olur. Gecəylə-gündüzün, zülmətlə-işığın, şərlə-xeyirin xüsusiyyətləri açıqlanacaq əsərdə, hadisələr soyuq Moskvadan Bakıya keçid alır.

Bir çox insanlara naməlum, qaranlıq, eyni zamanda, maraqlı gələn sirlərlə dolu məqamlara aydınlıq gətiriləcək sözügedən kitabda dini, fəlsəfi, elmi və praktik hadisələr bütün reallıqla nümayiş etdiriləcək. Eqreqorlar, satanistlər, maqlar, şamanlar, cindarlar, ovsunçular, faldarlar, məxfi təşkilatlara qulluq edən fərqli və fərdi fenomenlərin (FFF) iç dünyasından və heç bir yerdə duymayacağınız faktların aşkarlanmasından bəhs edən bu kitab həyəcansız oxunmayacaq.

# I HİSSƏ

## *1. Satanist Daryanın fövqəlgücü: nələr bilirdi?*

*"Mən Allahı işgəncə və təcavüz dolu köməksiz illərimdə uzun müddət səslədim; O mənə yardım etmədi..."*

Moskva ərazisinə yazın gəlişi heç cürə təsir etməmişdi. Axşamlar yağan sulu qar gecə yarısından sonra xırda, bəyaz, parıltılı və soyuq muncuqlara çevrilirdi. Şənbə və bazar günləri universitetlərdə dərs keçirilmədiyindən, bu nəhəng meqapolis ürəyimi sıxır, sanki qəribliyi ilə bədənimi Moskvanın mənfi on dərəcə şaxtasından betər üşüdürdü.

Deyəsən, yataqxanada artıq bir neçə müddət mənimlə bir otaqda qalan Darya da bu narahatlığımı sezmişdi. Odur ki, axşam-axşam dolaşmağı təklif etdi. Əslində, Daryanı əvvəllər heç bəyənmirdim. Üç il bir otaqda bərabər "qonşuluq etdiyim" Diana Brılyakova Moskva ətrafında yaşayan sevgilisinin yanına köçəndə ürəyimə bir vəlvələ düşdü. Tanımadığım insanın otağıma yerləşdiriləcəyini və çox güman ki, Diana qədər mənə həssas və əziz olmayacağını gözəl anlayırdım. Komendantın məni yanına çağırmağı ilə bütün məsələ aydın oldu: mənim otağıma qaradinməz, heç kimlə ünsiyyət qurmayan, gənc qız olmasına baxmayaraq, daim kişi geyimində gəzən Darya Volkovanı keçirirdilər. Mən "yataqxana kraliçası" komendant xanıma öz narazılığımı bildirdim, "Nadejda İvanovna, mən o qaradinməz ilə bir

otaqda qalmaq istəmirəm”, – dedim. Nadejda İvanovna öz yaşıl gözləri ilə məni başdan ayağa süzdü, sonra süni uzun dırnaqları ilə masanın üzərində sanki piano ifa edirmiş kimi taqqıldatmağa başladı. Psixologiyada bu hal həmsöhbətin əsəblərinə hakim olması üçün işlədilən “jestikulyasiya” adlandırılır. Səbirsizliklə onun qərarını gözləyirdim ki, bir neçə dəqiqə sükutdan sonra Nadejda İvanovna dilləndi:

– Deməli belə, Daşa keçir sənin otağına, çünki başqa boş yer yoxdur. Məlumatın olsun ki, onun əvvəlki qaldığı otağa Pakistandan gələn iki qız tələbə yerləşdirilib. Əgər Daryadan hər hansı narazılığın yaranarsa, söz verirəm ki, elə ilk müraciətində Daşanı rədd edəcəyəm! Amma güman edirəm ki, sən onunla ümumi dil taparsan.

Mənim etiraz etmək istəyimi görüncə isə Nadejda İvanovna: “Heç bir fikir bildirməyini istəmirəm, sadəcə bütün məsələləri zamana buraxaq”, – dedi.

Beşinci mərtəbəyə necə qalxdığımı xatırlamırdım. Əsəblərim tamamilə oyaq idi. Hirslə otağımın qapısını açıb içəriyə daxil oldum. Çarpayıda əyləşərək xeyli düşünməyə başladım. Bu iri meqapolisin hər cür cərəyanı, xüsusilə də gənclərdən ibarət müxtəlif təriqətlərə, dinlərə bölünmüş ünsürləri var idi. Kim bilir, qeyri-adi görünüşdə olan Daşa onlardan hansının nümayəndəsi idi!

Bu fikirlərlə necə yuxuya daldığımı hiss etmədim, ayılanda isə otağımın təzə sakininin məni oyatmamaq üçün ayaq barmaqlarının ucunda gəzdiyini hiss etdim. Oyandığımı sezərək geriyə çevrildi, sadəcə olaraq: “Salam”, – dedi.

Daşa Moskva Tibb Universitetinin Psixologiya fakültəsində oxuyurdu, axşamlar isə universitetə yaxın özəl poliklinikaların

birində tibb bacısının köməkçisi kimi çalışırdı. Onunla əvvəllər salam-kəlamım olmasa da, hər dəfə bu qeyri-adi oğlan cildində qıza maraqla baxır, "görəsən, niyə əksər qızlar kimi deyil?" – deyə düşünürdüm. İndi isə təsadüfə bax ki, maraqla uzaqdan izlədiyim insan düz çarpayımın yanında mənimlə bir otaqda yaşayır. Öz-özümə doğma diyarımızın "ilan-yarpız məsəli"ni xatırladım. Yəqin, özüm də fərqinə varmadan, şüuraltı suallarımla bu qızı daxili dünyama cəlb etmişəm deyə düşündüm...

Könülsüz olaraq Daşaya: "Salam", – dedim. Sonra əl-üzümü yuyub axşam yeməyi üçün hazırlıqlara başladım. Daşa universitetdən yenicə gəlmişdi, tələm-tələsik paltarlarını dolaba yerləşdirib işə yollandı.

Bu minvalla iki həftə səssiz ötüşdü, Daşa ilə aramızda "salam-sağ ol"dan başqa hər hansı bir söhbət olmurdu desəm, bəlkə də, təəccüblü olar.

İkinci həftənin son iş günü isə həyatımda unudulmayacaq günə çevriləcək və tərzini, qəribə görünüşünü bəyənmədiyim Daşa günün qəhrəmanı olacaqdı... Yəqin, bir çoxlarının rus xalqının ənənəvi göbələk kürüsü kimi xüsusi hazırladıqları turşu və şorabalarından xəbəri var. Adətən bütün yeməklərində istifadə olunan şüşə qablarda duzlaşdırılmış bu nəfis qidanı sevməyən rus, ola bilsin ki, yoxdur. Moskvada olduğum müddətdə ilk dəfə dadına baxdıqda heyrətimi gizlədə bilmədiyim turşu, sən demə, sonralar həyatıma son qoya biləcək zəhər olacaqmış!

Miskin tələbə həyatından heç kəs bixəbər deyil. Səhər saat doqquzdan axşam yeddiyə kimi mühazirələrdə, kitabxanalarda zaman keçirən ac tələbənin yataqxanaya döndükdə ilk işi soyuducuda eşələnməkdən ibarət olur.

Beşinci gün idi. Tələbələrin çoxu universitetdən yataqxanaya deyil, iki-üç gün rahat dincəlmək üçün evlərinə getmişdi. Mən isə yeni dərs həftəsinə qədər az olmayan bu müddətin cansıxıcılığını ya kitablarla, ya da kompüterim vasitəsilə maraqlı film izləməklə keçirirdim.

Adəti üzrə yataqxanaya dönər-dönməz soyuducuda eşələnməyə başladım. İlk əlimə düşən də elə bir həftədən çox qapağı açılmış yarımçıq göbələk turşusu oldu ki, onu soyuducudan çıxarıb çörəklə yeməyə başladım. Zəhərləndiyimi dərhal hiss etmədim. Beş dəqiqə sonra başımda dözülməz ağrılar yarandı, gözlərim qaralmağa, dizlərim tutulmağa başladı. Beynimin az da olsa düşünən küncündə reflektor olaraq yataqxanada bu boş günlərdə adətən heç kimin olmadığını anlasam da, yeganə ümidim komendantın otağına yaxın qalan növbətçi qadın – "vaxtşa"nın yanına getmək istəyim oldu. Otağımın çıxış qapısına bir-iki addım atmışdım ki, artıq hədsiz dərəcədə qüvvədən düşmüş ayaqlarım sözümə baxmadı; qapının tutacağından yapışsam da, o mənim yardımçım olmadı və yerə sərildim.

Neçə saat bu vəziyyətdə qaldığımı xatırlamırdım. Gözlərimi açmaq istəyəndə isə qəribə mahnıya bənzər uğultu hiss etdim. Yarıqaranlıq otaqlarda nəhəng-nəhəng ilanlar-əqrəblər üzərimə yeriyirdi; hər birinin son dərəcə təhlükəli olduğunu şüuraltı hiss edərək küncə qısılmaq istəyim isə daşa dönmüş əzalarımın gücündə deyildi. İri həşəratlardan və zəhərli varlıqlardan məni şamlar ayırırdı; dairəvi olaraq ətrafıma bir-birinin ardınca uzun-uzun qırmızı alov dilli, otağı işıqlandıran şamlar düzülmüşdü. Başımın üstündə Daryanı gördüm. O özünə bənzəmirdi. Nərilti, haradasa uğultu və nalə ilə qəribə dildə sanki mahnı oxuyur, əllərini çarpaz sinəsinə dirəyir, sonra isə mənə tərəf tuşlayırdı. Bu minvalla

qız sanki kimdənsə mənim üçün imdad diləyir, həyata qayıtmağım üçün kömək istəyirdi.

Yalnız sonralar Daşanın mənə etdiyi etiraflarından öyrənəcəkdim ki, universitetdən işə hazırlaşmaq fikri ilə yataqxanaya dönən Daşa məni yerdə halsız halda aşkarlayır və əlindən gələn bütün ilk tibbi tədbirlərin təsirsiz olduğunu gördükdə, parapsixologiyada insan aurası üçün ən ağır sayılan "ritual" adlandırılan sekta ayinini üzərimdə gerçəkləşdirmək məcburiyyətində qalır. Sən demə, yarıqaranlıq otaqda gözümə dəyən kölgələr, həşəratlar, əqrəb və ilan kölgələri də məhz qaranlıq aləmin nümayəndələri cildində olan ünsürlər idilər ki, müqəddəs şam işıqları məni onlardan ayin qanununa görə təmizləyir, yenidən həyata qaytarırmış. Beləliklə, qaradinməz, qəribə görkəmli Daşa mənim xilaskarıma çevrildi. Onunla, sözün əsl mənasında, dostlaşdıq. Məlum oldu ki, Darya sinəsində qara beş ulduz – "Pentaqon" gəzdirir və birbaşa şər qüvvələrin şahı sayılan İblisin özünə – Lütsiferə qulluq edirmiş. Çox maraqlıdır ki, şər qüvvələrin təmsilçisi və nümayəndəsi olan bu qızcığaz olduqca savadlı və eyni zamanda, məntiqə əsaslanan ədalətli bir şəxs idi.

Daryadan niyə məhz satanistlərdən ibarət cərəyana aid olduğunu da maraqlandım. O mənə kədər dolu həyatını anlatdı. Məlum oldu ki, körpəlikdən içki düşkünü olan valideynlərinin himayəsində böyüyən Daşa uzun illər əqli zəif olan ana babası tərəfindən zorlanmaya məruz qalıb. Beyni daim dumanlı olan anasına bu haqda bildirdikdə isə qızcığaz "yalançı" adlandırılaraq valideynləri tərəfindən xüsusi işgəncələrlə üzləşib. Qızcığaza qarşı insanlığa sığmayan bu dəhşət dolu ailə şiddətini dinləyərkən inanılmaz dərəcədə təsirlənmişdim, Daşanın halına, sözün əsl mənasında, acıyırdım, bununla belə, bildiyim, eşitdiyim